UOT 37.0

***Aytən Mövsüm qızı Mövsümlü***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*

# AUDİTORİYADANKƏNAR TƏDBİRLƏRDƏ TƏLƏBƏLƏIRİN BƏDİİ YARADICILIQ QABİLİYYƏTLƏRİNİN FORMALAŞDIRILMASI PROBLEMİNİN TƏDQİQİNƏ DAİR

***Айтен Мовсюм гызы Мовсюмлю***
*докторант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики*

# К ИССЛЕДОВАНИЮ ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ ХУДОЖЕСТВЕННОГО ТВОРЧЕСТВА СТУДЕНТОВ НА ВНЕАУДИТОРНЫХ МЕРОПРИЯТИЯХ

***Aytan Movsum Movsumlu***
*doctorial student in the program of doctor of philosophy*
*İnstitute of Education of the Republic of Azerbaijan*

# TO RESEARCH THE PROBLEM OF FORMATION OF ARTISTIC CREATIVITY OF STUDENTS AT OUTSIDE EVENTS

**Xülasə.** Məqalə auditoriyadankənar tədbirlərdə tələbələrin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması probleminin tədqiqinə həsr edilmişdir. Məqalədə təlim-tərbiyə müəssisələrində təhsil alanların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması ilə bağlı aparılan tədqiqatlara, o cümlədən mövcud dissertasiyalara münasibət bildirilmişdir. Göstərilmişdir ki, tədqiqatların heç biri auditoriyadankənar tədbirlərdə tələbələrin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması probleminə həsr edilməmişdir. Bunun üçün haqqında danışılan problemin tədqiqinə zəruri ehtiyac olduğu ilə bağlı ümumiləşdirmələr aparılmışdır.

***Açar sözlər:*** *auditoriyadankənar tədbirlər, bədii yaradıcılıq, tələbələrin yaradıcılığı, bədii yaradıcılıq qabiliyyətləri, istedadlılıq, talantlılıq, bədii yaradıcılığın tədqiqi, tədqiqat obyektləri*

**Резюме.** Статья посвящена исследованию проблемы формирования художественного творчества студентов на внеаудиторных мероприятиях. В ней излагается отношение к формированию художественного творчества у обучаемых в образовательных учреждениях, в том числе, и в существующих диссертационных исследованиях. Отмечается, что ни одно из исследований, проведённых по воспитательной работе в образовательных учреждениях, не посвящено проблеме формирования художественного творчества студентов во внеаудиторных мероприятиях. В этой связи были сделаны обобщения о необходимости изучения названной проблемы.

***Ключевые слова:*** *внеаудиторная деятельность, художественное творчество, творчество студентов, навыки художественного творчества, талантливость, исследование художественного творчества, объекты исследования*

**Summary.** The article is devoted to the study of the problem of formation of artistic creativity of students in extracurricular activities. The article comments on the research conducted on the formation of artistic creativity of students in educational institutions, as well as existing dissertations. It was noted that none of the research conducted on educational work in educational institutions is devoted to the problem of formation of artistic creativity of students in extracurricular activities. In conclusion, generalizations were made about the need to study the problem in question.

***Keywords:*** *extracurricular activities, artistic creativity, students' creativity, artistic abilities, talent, ability, research of artistic creativity, research objects*

Ölkəmizdə həyata keçirilən təhsil islahatlarına dair direktiv sənədlərdə auditoriyadankənar tədbirlərdə tələbələrin asudə vaxtlarının səmərəli təşkilinin təkmilləşdirilməsilə bağlı irəli

sürülən elmi ideyalar, təkliflər və tövsiyələr bu sahədə tədqiqat aparanların qarşısında da ciddi vəzifələr qoyur. Bu vəzifələrin müvəffəqiyyətlə həlli üçün auditoriyadankənar tədbirlərdə tələbələrin bədii yaradıcılığa cəlb edilməsi, bu prosesdə onların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması ilə bağlı elmi tədqiqatların günün tələblərinə cavab verə biləcək bir tərzdə aparılması zəruri hesab olunur. Bunun üçün bu günə qədər ölkəmizdə bədii yaradıcılıq problemi ilə bağlı həyata keçirilən tədqiqatların vəziyyətinin təhlilinə zəruri ehtiyac duyulur. Ona görə ki, yetişən nəslin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması ilə bağlı aparılan tədqiqatların ümumi vəziyyətinin təhlili bu sahədə aparılacaq tədqiqatların təkmilləşdirilməsi və modernləşdirilməsi işinin səmərəsini artırmış olar. Qeyd etməliyik ki, Azərbaycan Respublikasında bədii yaradıcılıq qabiliyyəti problemi ilə ilk tədqiqatlar prof. F.B. Sadıqov tərəfindən aparılmışdır. Onun "Uşaqlarda bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması üzrə işin nəzəriyyəsi və praktikası" adlı mövzuda təqdim etdiyi doktorluq dissertasiyasında əsas məqsəd məktəbəqədər yaşlı uşaqların və məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması ilə bağlı iş modeli yaratmaqdan ibarət olmuşdur. Müəllif dissertasiyanın birinci fəslində uşaq bağçalarının həm kiçik, həm orta, həm böyük, həm də məktəbəhazırlıq qruplarında uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin aşkara çıxarılması, inkişaf etdirilərək formalaşdırılması ilə bağlı elmi ideyalar irəli sürmüş və bir sıra praktik xarakterli işləri həyata keçirmişdir.

Dissertasiyanın növbəti fəslində tədqiqatçı ibtidai sinif şagirdlərinin bədii yaradıcılıq qabiliyyətlərinin aşkara çıxarılaraq formalaşdırılması ilə bağlı nəzəri müddəalar irəli sürmüş və bir sıra praktik nümunələri təqdim etmişdir. Sonrakı fəsillərdə isə dissertasiya müəllifi V-XI sinif şagirdlərinin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması ilə bağlı hazırladığı iş modelini təqdim etmişdir.

Prof. F.B. Sadıqov "Uşaqlarda bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması üzrə işin nəzəriyyəsi və praktikası" adlı mövzuda apardığı tədqiqatların nəticələrini eyniadlı monoqrafiyada vermiş və alınan nəticələri demək olar ki, praktikaya tətbiq etməyə nail olmuşdur. İstər dissertasiyada, istərsə monoqrafiyada müəllif ali məktəb tələbələrinin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işindən bəhs etməmişdir.

Müəllifin uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasına həsr etdiyi ikinci əsəri "Bədii yaradıcılıq dərnəkləri" (1) adlanır. Dörd fəsil və ssenarilərdən ibarət həmin kitabda "Uşaqların bədii yaradıcılıq qabiliyyətləri ilə bağlı aparılan işlərin məzmunu" adlanan birinci paraqrafını bədii yaradıcılıq qabiliyyətləri anlayışının mahiyyətinin aydınlaşdırılmasına həsr edilmişdir. Digər paraqraflardsa bədii yaradıcılıq dərnəklərinin təşkili məsələləri yer alır. II, III, VI, V fəsillərdə isə monoqrafiya müəllifi yalnız musiqi dərnəklərinin təşkili və bu dərnəklərdə həyata keçirilən işlərin ümumu istiqamətlərini şərh edir. Kitabın sonunda "El-oba müdrikliyi", "Xalqın hikmət yaddaşı", "Vətən sevgisi" başlıqları altında verilən ssenarilər isə ümumtəhsil məktəblərinin səhnələrində nümayiş etdirilmək üçün nəzərdə tutulan tədbirin ssenariləri kimi təqdim olunur. Bütövlükdə götürdükdə prof. F.B. Sadıqovun adı çəkilən kitabında ali məktəbin auditoriyadankənar tədbirlərində həyata keçirilməsi zəruri sayılan bədii yaradıcılıq dərnəkləri, kütləvi tədbirlər və bu kimi məsələlərdən söhbət açılmır.

Ölkəmizdə bədii yaradıcılıq qabiliyyətləri problemi ilə bağlı ikinci dissertasiya əsərinin müəllifi Naxçıvan Dövlət Universitetinin dosenti M. Xəlilov hesab olunur. Onun "İbtidai siniflərdə şagirdlərin təsviri sənət üzrə bədii yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsinin nəzəri-pedaqoji əsasları" (8) adlı dissertasiyasında tədqiqatın əsas obyekti şagirdlərin təsviri sənət üzrə bədii yaradıcılıqlarının formalaşdırılması üzrə işin təşkilinə yönəldilmişdir. Dissertasiyada, əsasən, 2 istiqamət üzrə aparılan tədqiqatların nəticələri öz əksini tapır. Birinci istiqamət üzrə aparılan tədqiqatlar təlim prosesində şagirdlərin təsviri incəsənət üzrə bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işlərinə həsr edilmiş, ikinci istiqamət üzrə aparılan tədqiqatlar isə tədbirlərdə şagirdlərin təsviri incəsənət üzrə bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işlərinin məzmununa həsr edilmişdir. Dissertasiyanın nə fəsillərində, nə paraqraflarında, nə nəticə və təkliflərində ali məktəb tələbələrinin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasına dair lazımi fikir yürüdülməmiş, müvafiq ideya irəli sürülməmişdir.

Azərbaycan Respublikasında bədii yaradıcılıq qabiliyyətləri ilə bağlı aparılan növbəti tədqiqatlardan biri Türkiyə Respublikasının vətən-

daşı, ölkəmizdə doktorantura təhsili alan Cem Soker Əhmədoğlu olmuşdur. Cem Soker "Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması" mövzusunda müdafiə etdiyi dissertasiya əsərində Türkiyə və Azərbaycan folklor nümunələrinin imkanlarından bəhrələnməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması probleminin həllinə nail olmuşdur. Müəllif Azərbaycanda uşaqların bədii yaradıcılığı ilə əlaqədar aparılan tədqiqat əsərlərini təhlil etməklə yanaşı, bu sahədə Türkiyə Cümhuriyyətində aparılan tədqiqatlara da münasibət bildirmişdir. Təəssüf ki, o, Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə öyrənənlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması sahəsində apardığı tədqiqatlarda tələbələrin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması probleminə yer ayırmamışdır. Qeyd etmək lazımdır ki, Azərbaycanın Türkiyə Cumhuriyyəti ilə ictimai, siyasi, iqtisadi və hərbi əməkdaşlığının gücləndiyi hazırkı şəraitdə Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etmək gənclərin, o cümlədən tələbələrin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması, onların şəxsiyyətyönlü inkişafının təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Q.H. Bayramovun "Ali məktəb tələbələrinin voleoloji tərbiyəsi" adlı dissertasiyasında (6) tələbələrin elmi dünyagörüşü fəlsəfə, tibb, biologiya, pedaqojika, psixologiya, ekologiya, fiziki tərbiyə və s elmlərin vəhdətindən yaranan dünyagörüşü kimi təqdim edilir. Bu elmlərin qovşağında tələbələrin elmi dünyagörüşlərinin artırılması məqsəd kimi qarşıya qoyulur. Əslində, voleologiya ayrı-ayrı elm sahələrindən götürülən ideyalar əsasında tələbələrin sağlamlığının təmin olunması və onların sağlam ruhda tərbiyə edilməsi kimi başa düşülür. Ona görə də elmi-tədqiqat dissertasiya əsərində irəli sürülən elmi ideyalar içərisində təhsil alanların sağlam həyat tərzinin formalaşdırılması ilə bağlı komponentlərinin müəyyənləşdirilməsi ən əsas vəzifələrdən biri kimi diqqəti cəlb edir. Düşünmək olardı ki, bu komponentlərdən biri kimi təhsilalanların və tələbələrin bədii yaradıcılığa istiqamətləndirilməsi, onların yaradıcı qabiliyyətlərinin formalaşdırılması nəzərdə tutulacaq. Çünki tələbələrin sağlam həyat tərzinin təşkilində onların yaradıcı qabiliyyətlərinin formalaşdırılması ən mühüm məsələlərdən biri hesab olunur. Bədii yaradıcılıq nümunələrindən yararlanan tələbələrin sağlam ruhda tərbiyə edilməsinə heç bir şübhə ola bilməz. Təəssüf ki, dissertasiyanın adı çəkilən fəslinin "Ali məktəb şəraitində tələbələrin sağlamlığının formalaşdırılması və təmin edilməsi yolları" adlanan dördüncü paraqrafında tələbələrin bədii yaradıcılığa cəlb edilməsi, yaxud tələbələrin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması yolu ilə onların sağlam ruhda tərbiyə edilməsi ilə bağlı elmi ideyalar irəli sürülə bilərdi. Təəssüf ki, müəllif belə yanaşmalara yol verməyi ya unutmuş, ya da nəzərdən qaçırmışdır.

R.M. Mahmudovanın "Ali məktəblərdə tələbə müstəqil işinin imkanları və yolları" (11) adlı dissertasiyasının ikinci fəslində auditoriyadankənar tədbirlərdə tələbələrin müstəqil işlərinin təşkili yollarından bəhs edilir. Əslində tələbələrin müstəqil fəaliyyətə cəlb edilməsi ölkəmizdə həyata keçirilən təhsil islahatlarına dair dövlət direktivlərinin əsaslarından biri hesab olunur. Bu baxımdan dissertasiyada tələbələrin müstəqil fəaliyyətə cəlb olunması zamanı onların intelektual qabiliyyətlərinin inkişaf etdirilməsi ilə bağlı yanaşmalar yaxşı təsir bağışlayır. Lakin burada tələbələrin yaradıcı qabiliy-yətlərinin nəzərə alınmaması ilə razılaşmaq olmaz. Çünki tələbələrin auditoriyadankənar tədbirlərə cəlb olunmaları, eləcə də yaradıcı fəaliyyətə istiqamətləndirilmələri onların müstəqil fəaliyyətləri şəraitində həyata keçirdikləri işlərin məzmunu kimi dəyərləndirilməlidir. Müəllif bunları diqqətdən kənarda saxlamışdır.

Eyni sözləri L.H. Əsədovanın "Ali məktəblərin bakalavr pilləsində tələbələrin müstəqil işinin sistemi" (5) və N. Zeynalovanın "Pedaqoji-psixoloji fənlərin tədrisi prosesində tələbələrin müstəqil işinin təşkili" adlı dissertasiyaları haqqında da demək olar. L.H. Əsədovanın dissertasiyasında "Ali məktəblərin bakalavr pilləsində tələbələrin müstəqil işinin sistemi" geniş şəkildə şərh olunsa da, bu sistemə tələbələrin bədii yaradıcılığa istiqamətləndirilməsi ilə bağlı görülən işlərin daxil edilməməsi həmin sistemin yarımçıq olduğunu sübut edir. Çünki auditoriyadankənar tədbirlərdə tələbələrin bədii yaradıcılığa cəlb olunması işində onların yaradıcı qabiliyyətlərinin formalaşdırılması əsas vəzifələrdən hesab olunur. Dissertasiyada auditoriyadankənar tədbirlərdə tələbələrin bədii yaradıcılıq fəaliyyə-

tinə cəlb olunması və bu zaman onların ingilis dilində mahnı oxumaları, xor unisonu vasitəsilə Azərbaycan mahnılarını ingilis dilində səsləndirmələri onların bədii zövqləri ilə yanaşı, bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasına da təsir göstərmiş olardı. Təəssüf ki, dissertasiyada belə yanaşmalara rast gəlmək mümkün deyil. N. Zeynalova adı çəkilən dissertasiyasında həm pedaqoji fənlərin, həm də psixoloji fənlərin tədrisi prosesində tələbələrin müstəqil işlərinin təşkili problemini işləyərkən mühazirə və seminarların auditoriyadankənar tədbirlərlə əlaqələndirilməsi prosesində tələbələrin yaradıcı qabiliyyətlərinin formalaşması probleminə yer ayırsa idi, dissertasiyanın sanbalı artar və dissertabelilik səviyyəsi yüksəlmiş olardı. Təəssüf ki, N. Zeynalova bunları nəzərə almamışdır.

Son illərdə müdafiə olunan bir neçə elmi-tədqiqat dissertasiya əsərlərində auditoriyadankənar tədbirlərdə tələbələrin bədii yaradıcılığa istiqamətləndirilməsi ilə bağlı elmi ideyaların yer almasını yaxşı hal kimi qeyd etmək lazımdır. Belə ki, A. Həsənov pedaqoji ali təhsil müəssisələrində gənc müəllimlərin peşə mədəniyyətinin formalaşması probleminə dair maraqlı dissertasiya əsəri müdafiə etmişdir. "Ali pedaqoji təhsil müəssisələrində gələcək müəllimlərin peşə mədəniyyətinin formalaşdırılması üzrə işin sistemi" (9) adlı dissertasiya əsərində müəllif istər təlim prosesində, istərsə də auditoriyadankənar tədbirlərdə gənc müəllimlərin peşə mədəniyyətinin formalaşdırılması ilə bağlı maraqlı fikirlər irəli sürür. Müəllif haqlı olaraq ali pedaqoji təhsil müəssisələrində gələcək müəllimlərin peşə mədəniyyətinin formalaşdırılmasını ən zəruri məsələlərdən hesab edərək bu problemin həlli üzrə işin sistemini yaratmaqla yeniliyə imza atmışdır. Dissertasiyanın ayrı-ayrı paraqraflarında tələbələrin mümkün vasitələrdən istifadə etməklə auditoriya və auditoriyadankənar təlim-tərbiyə işlərinin nümunəvi təşkilindən bəhs etsə də, bu işlərin təşkilində gələcək müəllimlərin peşə mədəniyyətinin formalaşmasına xidmət edən mədəni-kütləvi tədbirlərin, bədii-yaradıcılıq gecələrinin, dram kollektivlərinin, xalq teatrlarının, təsviri sənət muzeylərinin təşkil edilməsi, yaradılması zamanı tələbələrin yaradıcı vərdişlərə yiyələndirmələri, müvafiq bacarıqlar qazanmaları, xüsusi qabiliyyətlər əldə etmələri ilə bağlı iş sistemi haqqında söhbət açmır. Dissertasiyanın ayrı-ayrı paraqraflarında auditoriyadankənar tədbirlərin təşkilini məqsədəuyğun sayan dissertasiya müəllifi bu barədə səthi tövsiyələr verməklə kifayətlənir. O, mümkün vasitələrdən istifadə etməklə auditoriyadankənar təlim-tərbiyə prosesində gənc müəllimlərin-tələbələrin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşması ilə bağlı olan işlərin həyata keçirilməsini zəruri hesab etsə də, bu işlərin məqsədyönlü şəkildə təşkilinə dair paraqraflarda məlumat vermir. Ali məktəblərdə təşkil olunan auditoriyadankənar tədbirlərin tələbələrin hərtərəfli inkişafına, beynəlmiləl tərbiyəsinə, xüsusilə onlarda tolerantlığın formalaşmasına həsr edilən tədqiqat əsərlərini də təqdir etmək lazım gəlir. Çünki belə tədqiqatlar ölkəmizdə yaşayan çoxsaylı xalqlara ehtiram göstərmək, məhəbbət bəsləmək kimi əxlaqi keyfiyyətlərin yüksəldilməsinə öz müsbət təsirini göstərmiş olur. Belə elmi tədqiqat dissertasiya əsərlərindən birinin müəllifi İ.B. Əmirəliyeva "Ali məktəb tələbələrində tolerantlığın formalaşması" (4) adlı dissertasiya əsərində paraqrafın birini sırf auditoriyadankənar tədbirlərin təşkilinə həsr etmişdir. Dissertasiyanın "Auditoriyadankənar tədbirlər prosesində tələbələrdə tolerantlığın formalaşdırılması" (4) adlanan paraqrafında müəllif ali məktəbdə auditoriyadankənar işin bir sıra formalarına müraciət etmiş, söhbətlərin, müzakirələrin, diskussiyaların, disbutların, görüşlərin, axşamların, tematik axşamların, ədəbi-bədii gecələrin, teatr tamaşalarının, sərgilərə baxışların, müsabiqələrin, şən və hazırcavablar klubunun çıxışlarını təşkili haqqında ümumi fikirlər irəli sürsə də, belə auditoriyadankənar tədbirləri təşkil edərkən bədii yaradıcılıq kollektivlərindən istifadə edilməsinin elmi-pedaqoji əsaslarından bəhs etməmişdir. Müəllif bu paraqrafda tarixi günlərə – Respublika gününə, Müstəqillik gününə, ümummilli lider Heydər Əliyevin ildönümünə, Ordu gününə, Novruz bayramına, Yeni ilə, həmçinin Qara yanvara və azərbaycanlıların soyqırımı gününə həsr olunmuş tədbirlərin hazırlanmasını zəruri hesab etdiyi halda, belə tədbirlərin təşkili işində tələbələrin bədii yaradıcılıq fəaliyyətindən əsla bəhs etmir. Unutmaq olmaz ki, ali məktəblərin auditoriyadankənar tədbirlərində tələbələrdə tolerantlığın formalaşdırılmasına xidmət edən və bu sahədə onlara ciddi təsir göstərən tədbirlər içərisində xalq teatrlarının, haxışdaların, yallıların, xorların,

xalq çalğı alətləri ansambllarının, vokal qruplarının, instrumental ifaçılıq sənətinin, aşıqlar heyətinin yaradılması, onların ifasında ayrı-ayrı xalqlara məxsus bədii yaradıclıq nümunələrinin təqdim edilməsi əgər bir tərəfdən tələbələrin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasına köməklik göstərirsə, digər tərəfdən onların tolerantlığa ehtiram bəsləmələrinə, hörmətlə yanaşmalarına öz müsbət təsirini göstərmiş olur.

Bütün bunlar deməyə əsas verir ki, ölkəmizdə istər müstəqillik dövrünə qədər, istər müstəqillik dövründən sonrakı illərdə həm təhsil alanların bədii yardıcılıq qabiliyyətləri problemi ilə bağlı aparılan tədqiqatlarda, həm də ali məktəblərin auditoriyadankənar tədbirləri probleminə həsr edilən tədqiqat əsərlərində ali pedaqoji təmayüllü məktəblərin bakalavr pilləsində təhsil alan tələbələrin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması sahəsində heç bir ciddi tədqiqatlar aparılmamışdır.

Bütün bunları nəzərə alaraq ali pedaqoji təhsil müəssisələrində gələcək müəllimlərə yetişən nəslin nümayəndələrinin bədii yaradıcılığa istiqamətləndirilməsi, onların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması ilə bağlı biliklərin verilməsi, ən zəruri bacarıq və vərdişlərin məqsədyönlü şəkildə aşılanması zəruri sayılır.

**Problemin elmi yeniliyi.** Məqalədə auditoriyadankənar tədbirlərdə tələbələrin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması probleminin tədqiqinə dair bir sıra faydalı elmi yanaşmalar, elmi müqayisələr və ümumiləşdirmələr yer alır. Bunlar məqalənin elmi yenilikləri kimi dəyərləndirilə bilər.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali məktəb rəhbərləri, ali məktəblərin auditoriyadankənar tədbirlərinə rəhbərlik edənlər və bu sahədə tədqiqat aparanlar faydalana bilərlər.

**Nəticə** etibarilə deyəbilərik ki, auditoriyadankənar tədbirlərdə tələbələrin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması probleminin tədqiqinə dair irəli sürülən elmi ideyalar, müddəalar, təklif və tövsiyələr bu sahədə faydalı tədqiqatların aparılmasına öz töhfəsini verəcəkdir.

**Ədəbiyyat:**


1. Sadıqov, F.B. Bədii yaradıcılıq dərnəkləri / F.B. Sadıqov. -Bakı: Təbib, -1994.
2. Sadıqov, F.B. Uşaqlarda bədii yaradıcılıq qabiliyyətlərin formalaşdırılması üzrə işin elmi pedaqoji əsasları / F.B. Sadıqov. – Bakı: ADPU-nun nəşri, -1994.
3. Sadıqov, F.B. Uşaqlarda bədii yaradıcılıq qabiliyyətlərin formalaşdırılması üzrə işin nəzəriyyəsi və praktikası: / Ped.elm.dok.dis. ...avtoref. / Bakı, 1992.
4. Əmirəliyeva, İ.B. Ali məktəb tələbələrində tolerantlığın formalaşdırılması / Ped.ü.fəls.dok.dis. ...avtoref. / Bakı, 2015.
5. Əsədova, L.Ş. Ali məktəblərin bakalavr pilləsində tələbələrin müstəqil işinin sistemi. (ingilis dilinin materialları əsasında). / Ped.ü.fəls.dok.dis. ...avtoref. / Bakı, 2012.
6. Bayramov, Q.H. Ali məktəb tələbələrinin valeoloji tərbiyəsi / Ped.ü.fəls.dok.dis. ...avtoref. / Bakı, Bakı, 2016.
7. Cem, Soker Ahmed oğlu. Türkiyə və Azərbaycan folkloru nümunələrindən istifadə etməklə məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması / Ped.ü.fəls.dok.dis. ...avtoref. / Bakı, 2016.
8. Xəlilov, M.X. İbtidai siniflərdə şagirdlərin təsviri sənət üzrə bədii yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsinin nəzəri-pedaqoji əsasları / Ped.ü.fəls.dok.dis. ...avtoref. Naxçıvan, 2006.
9. Həsənov, A.A. Ali pedaqoji təhsil müəssisələrində gələcək müəllimlərin peşə mədəniyyətinin formalaşdırılması üzrə işin sistemi / A.A. Həsənov. -Bakı, -2014.
10. Həsənova G.R. Tələbələrin özünüreallaşdırmasında demokrafik amillərin neqativ təsirlərinin aradan qaldırılması yolları / Ped.ü.fəl.dok. dis. ...avtoref. / Bakı, 2013.
11. Mahmudova R.M. Ali məktəbdə tələbə müstəqil işinin imkanları və yolları / Ped.ü.fəls.dok.dis. ...avtoref. / Bakı, 2003.
12. Zeynalova N.E. Pedaqoji-psixoloji fənlərin tədrisi prosesində tələbələrin müstəqil işinin təşkili / Ped.ü.fəls.dok.dis. ...avtoref. / Bakı, 2015.


**E-mail**: a.movsumlu@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **F.B.Sadıqov,**
*ped.ü.fəls.dok.* **L.A. Məmmdli**

**Redaksiyaya daxil olub:** 02.07.2021